ШЕФАСЕБИСА ДА ГАМОЦДЕБИС ЕРОВНУЛИ ЦЕНТРИ

iyul, 2023

# Coğrafiya üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Testin hər bir tapşırığının təlimatı ilə diqqətlə tanış olun, hər tapşırığın tələbini yaxşı düşünün və sonra işə başlayın.

Testin üzərində işləyərkən əlavə olunmuş xəritələrdən istifadə edin.

Nəzərə alın ki, düzgün cavabla birlikdə qeyri-düzgün cavab da göstərsəniz, bal qazana bilməyəcəksiniz.

Testin maksimum balı - 55

Testin üzərində işləmək üçün sizə 4 saat vaxt verilir

Sizə uğurlar arzulayırıq!

- ***Seçmə cavablı sual***

| **Təlimat** |
|---|
| Hər bir sualın dörd ehtimal olunan cavabı vardır. Onlardan yalnız biri doğrudur. Seçilmiş cavabı cavablar vərəqəsinə aşağıdakı kimi köçürün: cavabların müvafiq xanasında X işarəsini qeyd edin. Başqa heç bir qeyd – üfüqi və ya şaquli xətlər, altından xətt çəkmək və s. kimi qeydlər elektron proqram tərəfindən qəbul edilmir. Əgər cavablar vərəqində qeyd olunmuş cavabı düzəltmək istəyirsinizsə, X işarəsi yazdığınız xananı bütünlüklə rəngləyin və sonra cavabın yeni variantını qeyd edin (yeni xanada X işarəsi yazın). Düzəltdiyiniz cavabı ikinci dəfə seçmək qeyri-mümkündür. Hər bir tapşırıq 1 balla qiymətləndirilir. |

- ***Uyğunluğun müəyyən edilməsi***

| **Təlimat** |
|---|
| Tapşırıqda verilmiş iki siyahı arasında uyğunluğu müəyyən edin. Cavabı cavablar vərəqəsində verilmiş cədvələ yazın. Hər hərfin altından müvafiq rəqəmi yazın. Tapşırıq maksimum 2 balla qiymətləndirilir. |

- ***Məlumatın təhlili***

| **Təlimat** |
|---|
| Verilən məlumatları (mətni, foto, cədvəl, qrafik və s.) diqqətlə oxuyun və suallara cavab verin. Cavabı cavablar vərəqəsində ayrılmış müvafiq yerə yazın. Balların miqdarı konkret tapşırığa görə müəyyən edilir. |

(1) **1. Antarktidanın kontur xəritəsində müxtəlif rənglərlə nə qeyd olunmuşdur?**



ა) Kar buzlaqları;

ბ) Asılı buzlaqlar;

გ) Dağ-dərə buzlaqları;

დ) Şelf buzlarqları.

**(1) 2. Ukraynada müharibə başlayanadək, Gürcüstan hansı ölkə ilə daha böyük ixracat həcminə malik idi?**

ა) Rusiya ilə;

ბ) Belarus ilə;

გ) Ukrayna ilə;

დ) Moldova ilə.

(1) **3. Gürcüstanın hansı bölgəsinin ənənəvi mətbəxində yemək hazırlamaq üçün ilbizlərdən istifadə olunur?**





ა) Svanetinin;

ბ) Samtsxenin;

გ) Kaxetinin;

დ) Sameqrelonun.





(1) **4. Xəritədə hansı rəqəmlə qeyd olunan ölkədə faşist partiyası daha əvvəl hakimiyyətə gəlib?**




ა) 1

ბ) 2

გ) 3

დ) 4

(1) 5. Hansı BMT-nin ixtisaslaşmış təşkilatı *deyil*?

ა) Ümumdünya Ticarət Təşkilatı;

ბ) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı;

გ) Beynəlxalq Valyuta fondu;

დ) Beynəlxalq Mülki Aviasiya Təşkilatı.

## (1) 6. Sel axınlarının əmələ gəlmə ehtimalı ən az olan çay hansıdır?



ა) Terek



ბ) Vere



გ) Supsa



დ) Duruci

## (1) 7. Şəkillərdə göstərilən dekorativ tikinti materialı hansı bələdiyyədə əldə edilir?

ა) Telavi;

ბ) Kazbeki;

გ) Çoxatauri;

დ) Tsxaltubo.



Diabaz dayaqlarla kəsilmiş qranitoid massivləri



Diabaz (dolerit)

## (1) 8. Ramsar Konvensiyası sadalanan qorunan ərazilərdən hansına aiddir?

ა) Batsari Dövlət Qoruğuna;

ბ) Kobuleti Dövlət Qoruğuna;

გ) Borjom-Xaraqauli Milli Parkına;

დ) Tiflis Milli Parkına.

**(1) 9. Hansı rütubətlilik şəraitində N məntəqəsində havanın temperaturu daha yüksək olacaq?**

| | **N məntəqəsində mütləq rütubətlilik** | **N məntəqəsində nisbi rütubətlilik** |
|---|---|---|
| **I** | 20 q/m³ | 80% |
| **II** | 20 q/m³ | 60% |
| **III** | 20 q/m³ | 40% |
| **IV** | 20 q/m³ | 20% |

ა) I

ბ) II

გ) III

დ) IV

**(1) 10. Cədvəldə hansı kənd təsərrüfatı bitkisinin istehsalı haqqında məlumatlar verilmişdir?**

| | **İstehsal** (min ton) | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
| **Gürcüstan** | **126.6** | **97.9** | **107.1** | **100.6** | **102.4** | **135.9** |
| Kaxeti | 102.8 | 80.4 | 86.1 | 83.5 | 80.7 | 101.3 |
| Samtsxe-Cavaxeti | 5.3 | 2.4 | 5.0 | 4.8 | 4.0 | 4.3 |
| Kvemo Kartli | 6.9 | 7.2 | 8.3 | 6.8 | 9.8 | 17.4 |
| Şida Kartli | 10.2 | 7.3 | 6.7 | 5.2 | 7.2 | 12.3 |
| Digər bölgələr | 1.5 | 0.5 | 0.9 | 0.4 | 0.7 | 0.5 |

ა) Qarğıdalının;

ბ) Fındığın;

გ) Buğdanın;

დ) Lobyanın.

**(1) 11. Geoloji kəsilişlərdə daha gənc təbəqə hansı latın hərfi ilə qeyd olunmuşdur?**




ა) A
ბ) B
გ) C
დ) D

(1) 12. Hansı dövlət dünyanın ilk beş buğda istehsalçısı sırasına ***daxil deyil***?

ა) Rusiya;

ბ) ABŞ;

გ) Misir;

დ) Çin.

**(1) 13. Verilən kosmik fotoda hansı dövlətin ərazisi *<u>görünmür</u>*?**



ა) İranın;

ბ) Gürcüstanın;

გ) Somalinin;

დ) Qətərin.

(1) 14. Xəritədə hansı ağ şərab brendinin mənşəyinin mikrozonası verilmişdir?




ა) Kisi;
ბ) Tvişi;
გ) Xvançkara;
დ) Ocaleşi.

(1) 15. Fotoda hansı növ terraslar göstərilmişdir?



ა) Süni;

ბ) Gömülmüş;

გ) Sürüşmə mənşəli;

დ) Aşınma mənşəli.

(1) 16. Şəkildə hansı dövlət qoruğunun fotokollajı verilmişdir?



ა) Kolxeti;
ბ) Laqodexi;
გ) Vaşlovani;
დ) Acameti.

(1) 17. Şəkildə hansı gölün formalaşma prosesi göstərilmişdir?




ა) Laqun;

ბ) Karst;

გ) Qlasial;

დ) Qalıq.

(2) 18. Xəritədə ölkələr üzrə kənd təsərrüfatı bitkilərin birindən istehsal olunan məhsulların bütün növlərinin dünya ixracında payı göstərilmişdir (2021-ci il). Xəritəni təhlil edin və sualları cavablandırın:




Keçid: tapşırığın II səhifəsinə

(1) 18.1. Xəritədə ixracı göstərilmiş məhsul hansı kənd təsərrüfatı bitkisindən istehsal edilir?

ა) Düyüdən;

ბ) Qəhvədən;

გ) Kakaodan;

დ) Zeytundan.

(1) 18.2. Bəzi Avropa ölkələrində bu göstəricinin belə yüksək olduğunu izah edin.

ა) Çünki qeyd olunan kənd təsərrüfatı bitkisinin böyük hissəsi bu ölkələrdə yetişdirilir;

ბ) Çünki qeyd olunan bitki bu ölkələrdə emal edilir və ondan istehsal edilmiş məhsul ixrac edilir;

გ) Çünki qeyd olunan məhsul bu ölkələrin mətbəxində ən az istifadə edilir;

დ) Çünki bu ölkələrdə qeyd olunan bitkinin seleksiya sortları yetişdirilir.

Keçid : tapşırığın I səhifəsinə

**(3) 19. İllustrasiyaları təhlil edin və sualları cavablandırın:**



**(1) 19.1.** Fotoda hansı şəlalə göstərilmişdir?

ა) Mardalsfossen; ბ) Sazerlend;

გ) Anxel; დ) Tuqela.

**(1) 19.2.** Şəlalənin ətəyində hansı təbii zona təqdim olunmuşdur?

ა) Savanna; ბ) Subtropik codyarpaqlı meşə;

გ) Tayqa; დ) Tropik meşə.

**(1) 19.3.** Şəlalə hansı dövlətdə yerləşir?

ა) Venesuelada; ბ) Yeni Zelandiyada;

გ) Norveçdə; დ) Cənubi Afrika Respublikasında.



## (4) 20. İllustrasiyaları təhlil edin və sualları cavablandırın:








Keçid : tapşırığın II səhifəsinə

(1) 20.1. İllustrasiyada hansı səyyahın marşrutu göstərilmişdir?

ა) Ernan Kortesin; ბ) Marko Polonun; გ) Vasko da Qamanın; დ) Fransisko de Orelianın.

(1) 20.2. Bu səyahətin həyata keçirildiyi dövr necə adlarır?

ა) Elmi intibah dövrü; ბ) Postsənaye dövrü;

გ) Səlib yürüşləri dövrü; დ) Böyük coğrafi kəşflər dövrü.

(1) 20.3. Qeyd olunan ekspedisiya üzvlərinin ilk avropalılar kimi keçdikləri marşrut hissəsini seçin:

ა) Luandadan Ümid burnuna qədər;

ბ) Ümid burnundan Mombasa qədər;

გ) Lissabondan Yaşıl burun adalarına qədər;

დ) Yaşıl Burun adalarından Luandaya qədər.

(1) 20.4. Sadalananlardan hansı avropalıları Hindistana alternativ yol axtarmağa vadar etdi?

ა) Avropada enerji resursları ilə təmin etmə problemi kəskin idi və Asiya ilə əlaqələri gücləndirmək lazım idi;

ბ) İnkvizisiya dövründə hökumət din xadimləri tərəfindən işğalçılıq müharibələrinə sövq edilirdi;

გ) İspaniya və Portuqaliya yeni coğrafi obyektlərin kəşfində və onların elmi tədqiqatlarında bir-biri ilə yarışırdılar;

დ)Ərəblər Hindistana gedən ən qısa ticarət yollarını bağladılar və avropalılar üçün Asiya mallarını bahalaşdırdılar.

Keçid :tapşırığın I səhifəsinə

## (5) 21. Topoqrafik xəritələrin fraqmentlərinə əsasən sualları cavablandırın:

**(1) 21.1.** Kopala dağının (მ. კოპალა) mütləq hündürlüyü nə qədərdir?




ა) 160,4 m
ბ) 177,1 m
გ) 180,9 m
დ) 192,7 m




რელიეფი

**ძირითადი ჰორიზონტალები გავლებულია ყოველ 2,5 მეტრში**

ა) ძირითადი ჰორიზონტალები
ბ) ძირითადი გამსხვილებული ჰორიზონტალები
გ) დამატებითი ჰორიზონტალები (ნახევრადჰორი-ზონტალები)
დ) ჰორიზონტალების სიმაღლის ნიშნულები მ-ში
ე) კალთის დახრის მაჩვენებლები (ბერგშტრიხები)

სიმაღლის ნიშნულები ა) ძირითადი ბ) ჩვეულებრივი



ჰიდროგრაფია

მდინარეები, ნაკადულები, ტბები

შრობადი ნაკადები

**(1) 21.2.** Tsartsula çayının (მდ. ცარცულა) düşməsinin neçə metr olduğunu təyin edin.




ა) 4.5 m
ბ) 6.5 m
გ) 8.5 m
დ) 10.5 m




რელიეფი

**ძირითადი ჰორიზონტალები გავლებულია ყოველ 2,5 მეტრში**

ა) ძირითადი ჰორიზონტალები
ბ) ძირითადი გამსხვილებული ჰორიზონტალები
გ) დამატებითი ჰორიზონტალები (ნახევრადჰორი-ზონტალები)
დ) ჰორიზონტალების სიმაღლის ნიშნულები მ-ში
ე) კალთის დახრის მაჩვენებლები (ბერგშტრიხები)

სიმაღლის ნიშნულები ა) ძირითადი ბ) ჩვეულებრივი



ჰიდროგრაფია

მდინარეები, ნაკადულები, ტბები

შრობადი ნაკადები

**(1) 21.3.** Hansı yaşayış məntəqəsi Bareti kəndindən (სოფ. ბარეთი) təxminən 315 ⁰ azimutda yerləşir?




ა) Livadi (ლივადი);

ბ) Karakomi (ყარაკომი);

გ) İmera (იმერა);

დ) Beştaşeni (ბეშთაშენი).

**(2) 21.4.** Bareti gölü (ბარეთის ტბა) hansı nöqtədən (A, B yoxsa C) *görünməyəcək?* Cavabı izah edin.



(2) 22. Uyğunluğu müəyyən edin (nəzərə alın ki, cavab *təkrarlanmamalıdır*):

**Xəritədə ulduz ilə buzlaq qeyd olunmuşdur**













| Buzlağın adı | | | | | |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| Devdaraki | Dolra | Lexziri | Ptişi | Tviberi | Tbilisa |

**(2) 23. Uyğunluğu müəyyən edin (nəzərə alın ki, cavab təkrarlana bilər):**

| | Fakt |
|---|---|
| ა | Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. |
| ბ | Avropa İttifaqı ilə assosiasiya sazişi var. |
| გ | Atom elektrik stansiyası var. |
| დ | Ərazisinin bir hissəsi Rusiya tərəfindən işğal edilmişdir |
| ე | Yalnız onun eksklavının Türkiyə ilə sərhədi var. |
| ვ | Energetik ehtiyatlara görə Cənubi Qafqazda ən kasıbdır. |

| | Dövlət |
|---|---|
| 1 |  |
| 2 |  |
| 3 |  |

(2) 24. Uyğunluğu müəyyən edin (nəzərə alın ki, cavab *təkrarlanmamalıdır*):

| Dövlətin konturu | | |
|---|---|---|
| ა)  | ბ)  | გ)  |
| დ)  | ე)   | ვ)  |

| Paytaxtının coğrafi koordinatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| Şm.e. 45°25'<br>Q.u. 75°41' | Şm.e. 28°36'<br>Ş.u. 77°12' | C.e. 35°18'<br>Ş.u. 149°07' | C.e. 15°48'<br>Q.u. 47°54' | Şm.e. 41°43'<br>Q.u. 44°47' | Şm.e. 59°55'<br>Ş.u. 10°45' | C.e. 25°45'<br>Ş.u. 28°11' |

**(2) 25. Uyğunluğu müəyyən edin (nəzərə alın ki, cavab *<u>təkrarlanmamalıdır</u>*):**

**İqlim diaramı**
















**Havanın növü**

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Aralıq dənizi | Kəskin kontinental | Musson | Arid | Polyar | Rütubətli ekvatorial |

(2) 26. Diaqramdakı məlumatlara əsasən X ölkəsində ən çox elektrik enerjisi istehsal edən elektrik stansiyasının növünü adlandırın. Seçiminizi əsaslandırın.



**(8) 27. Verilən məlumatı təhlil edin və sualları cavablandırın:**

2020-ci ildən dünya çətin siyasi-iqtisadi vəziyyətə düşdü. Avropada vəziyyət xüsusilə kəskinləşdi və 2022-ci ilin fevralında genişmiqyaslı hərbi münaqişəyə gətirib çıxardı.

Rusiyanın Ukraynaya təcavüzü "Şimal axını-II" qaz kəmərinin istismara verilməsinin qarşısının alınmasını şərtləndirdi və Avropanın Rusiya enerji resurslarından asılılığı məsələsini daha da qabartdı. Rusiya hökuməti üçün enerji daşıyıcıları siyasi təzyiq və şantaj alətinə çevrildi.







Keçid : tapşırığın II səhifəsinə, III səhifəsinə




**Avropaya boru kəmərlərinin marşrutları**

Keçid:tapşırığın
I səhifəsinə,
III səhifəsinə

(2) 27.1.“Şimal axını-II” layihəsinə lobbiçilik edən aparıcı Avropa İttifaqı ölkəsini adlandırın. Bu ölkənin qeyd olunan layihəyə marağı nə ilə izah olunur?

(2) 27.2. “Şimal axını- II ” layihəsinə qarşı çıxan Şərqi Avropa ölkəsini adlandırın. Bu ölkənin mövqeyi nə ilə izah olunur?

(1) 27.3. 2021-ci ildə Avropa İttifaqının təbii qaz təchizatının təxminən neçə faizi Rusiyadan asılı idi?

(1) 27.4. 2020-ci ildə Avropa İttifaqını təbii qazla təmin etmək üçün hansı nəqliyyat növündən istifadə edilib?

(1) 27.5. Avropa İttifaqı Rusiya təbii qazından asılılığını azaltmaq və ondan tamamilə imtina etmək haqqında strategiyasını açıqlayıb. Qeyd olunan problemin hansı alternativ yolla həll edilə biləcəyini izah edin.

(1) 27.6. Qeyd olunan enerji böhranının həllində Gürcüstan hansı funksiyanı yerinə yetirə bilər?

Keçid: tapşırığın I səhifəsinə, II səhifəsinə

(6) 28. İllustrasiyaları təhlil edin və sualları cavablandırın:








Keçid: tapşırığın II səhifəsinə

(1) 28.1. İllustrasiyalardan hazırda Kaxeti bölgəsinin kənd təsərrüfatında aparıcı olan dörd sahəni seçin və onları adlandırın.

(1) 28.2. İllustrasiyalarda göstərilən kənd təsərrüfatı sahələrindən hansı sovet dövründə Kaxeti üçün ixtisaslaşmış sahələrdən biri olub, bu gün isə o, yalnız ailə təsərrüfatları şəklində qorunub saxlanılır?

(1) 28.3. Otlaqların qoyunların otarılması məqsədilə nəzarətsiz istifadəsi nəticəsində yaranan ekoloji problemi adlandırın.

(2) 28.4. Kaxeti bölgəsində yay və qış otlaqları harada yerləşir?

(1) 28.5. Estetik nöqteyi-nəzərdən başqa, üzüm bağında qızılgül kollarının əkilməsinin praktiki əhəmiyyətini izah edin.

Keçid : tapşırığın I səhifəsinə